*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 avqust 2018-ci il № 58 (2274) Qiyməti 25 qəpik


# Azərbaycan Respublikasının Müdafiə naziri "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının açılış mərasimində iştirak edib






*Azərbaycan dövləti və onun ordusu hazırda beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutur və bu istiqamətdə böyük uğurlar qazanır. Bu gün Azərbaycan Ordusu əldə etdiyi ciddi inkişafla bərabər, beynəlxalq hərbi təhlükəsizlik və beynəlxalq hərbi əməkdaşlıq məsələlərində də mühüm rol oynayır. Xüsusilə də mövqelərimizin möhkəmlənməsinə şərait yaradan beynəlxalq hərbi əməkdaşlıq Azərbaycan Ordusunun dövlətlərarası hərbi münasibətlərdə sabit tərəfdaş kimi qəbul olunmasına və ordumuzun regional nüfuzunun artmasına imkan verir.*

Dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin bərqərar olması, dostluq və rəqabət gücünün daha da artırılması məqsədinə xidmət edən Beynəlxalq Ordu Oyunları bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə reallaşan və 2015-ci ildən keçirilən bu oyunlar dünyanın möhtəşəm idman birincilikləri sırasındadır. Başlanğıcdan bu yarışların iştirakçısı olan Azərbaycan üçün Beynəlxalq Ordu Oyunlarının əhəmiyyəti böyükdür və Azərbaycan Ordusunun qazandığı mövqeyin, ordumuzun beynəlxalq çəkisinin, dünyanın aparıcı dövlətlərinin orduları qarşısında qazandığı reputasiyanın ifadəsidir. Eyni zamanda, belə tədbirlər ordumuz və dövlətimiz adına müəyyən nüfuz qazandırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək, bu gün Azərbaycan dünya miqyasında xüsusi çəkiyə malik olan dövlətdir. Sözün həqiqi mənasında, ölkəmizin çəkisini, ordumuzun inkişafını dünya siyasətində hər bir dövlət görür, qiymətləndirir, ölkəmizi və ordumuzu dünya siyasətində etibarlı tərəfdaş kimi dəyərləndirirlər. Azərbaycan dünyada baş verən proseslərə təsir etmək gücündədir və bu güc çoxdan regional səviyyəni aşıb.

Dünyanın inkişaf etmiş orduları sırasına daxil olan Azərbaycan Ordusu üçün bu, həm də Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından əla imkandır. Qeyd etmək lazımdır ki, Azərbaycan Ordusunun nümayəndələri bundan əvvəl keçirilən hər üç yarışda iştirak edib və ayrı-ayrı istiqamətlər üzrə yarışın mükafatçıları sırasına düşə bilib.

Bu il də ənənəyə sadiq qalaraq Beynəlxalq Ordu Oyunları yarışları keçirilib. Moskva şəhərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 28-də Alabino hərbi poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları - 2018" yarışlarının təntənəli açılış mərasimində iştirak edib.

Moskva vilayətinin Alabino hərbi poliqonunun "Patriot" hərbi parkında keçirilən mərasimdə Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu, Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Belarusun Müdafiə naziri general-leytenant Andrey Ravkov, Qazaxıstanın Müdafiə naziri general-polkovnik Saken Jazusakov və bir sıra ölkələrin Baş Qərargah rəisləri iştirak ediblər.

Mərasimdə "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarında iştirak edən ölkələrin hərbçilərinin paradı keçirilib. Paraddan sonra "Patriot" hərbi parkında yarışlara start verilib.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarında Avropa, Asiya, Afrika və Latın Amerikasının 32 ölkəsindən olan hərbçilər iştirak edirlər.

İyulun 28-dən avqustun 11-dək davam edəcək yarışlar Rusiya ilə bərabər, Azərbaycan, Belarus, Qazaxıstan, Ermənistan, Çin və İranın poliqonlarında da keçiriləcək.

Beynəlxalq Ordu Oyunlarında ümumilikdə 28 müsabiqə keçiriləcək. Bunlar "Tank biatlonu", "Dəniz kuboku", "Birlik döyüşçüsü", "Snayper həddi", "Artilleriya atəşi ustası", "PUA heyətlərinin yarışları", "Silahdüzəldən usta", "Aviadarts", "Desant bölüyü", "Təmiz səma", "Təhlükəsiz mühit", "Suvorov hücumu", "Hərbi ralli" və digər müsabiqələrdir. Bu yarışlardan 17-si Rusiyada, 4-ü Çində, 3-ü Qazaxıstan, Azərbaycan, İran, Ermənistanda və 1-i isə Belarusda keçiriləcək.

Qeyd edək ki, hərbçilərimiz ölkəmizdə keçirilən "Dəniz Kuboku" ilə yanaşı, Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrində iştirak edirlər.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri general-polkovnik Zakir Həsənov:
# Münaqişənin həlli üçün Ermənistan qoşunlarını torpaqlarımızdan qeyd-şərtsiz çıxarmalıdır

*İyulun 30-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Cəbhə xəttindəki hazırkı vəziyyətin müzakirə olunduğu görüşdə general-polkovnik Zakir Həsənov vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə başlıca maneədir.

T.Klaar da öz növbəsində Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tezliklə sülh yolu ilə həllinin vacibliyini qeyd edib. Qonaq Ermənistanın yeni baş naziri Nikol Paşinyanın hazırda yürütdüyü siyasətin münaqişənin sülh yolu ilə həllinə yönəldiyinə ümidvar olduğunu bildirib. Diplomat həmçinin Aİ-nin bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Müdafiə naziri qonaqların diqqətinə çatdırıb ki, Ermənistanın yeni rəhbərliyinin Azərbaycanın əleyhinə yönəlmiş hərbi ritorikalı çıxışları, xüsusilə baş nazir və müdafiə nazirinin öz övladlarını ölkəmizin işğal olunmuş ərazilərinə hərbi xidmətə göndərmələri bu hakimiyyətin də münaqişənin sülh yolu ilə həllində maraqlı olmamasına sübutdur. General-polkovnik Zakir Həsənov xüsusi qeyd edib ki, münaqişənin tezliklə həll edilməsi üçün Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməklə işğalçı ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Azərbaycan Respublikasının Müdafiə naziri "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının açılış mərasimində iştirak edib

**(Əvvəli 1-ci səhifədə)**

Bundan əlavə, hərbçilərimiz İranda keçirilən "Dərinlik" və Rusiyada təşkil olunan "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edirlər.

şüb. Azərbaycan komandası da daxil olmaqla müxtəlif ölkələrin hərbi aşpazları yarışların iştirakçıları və qonaqlar üçün 150-dən çox milli mətbəx nümunələri təqdim ediblər. Çoxsaylı qonaqlar Azərbaycanın hərbi aşpazlarının hazırladıqları təamların dadına baxıblar.



Yarışla əlaqədar Moskvaya səfəri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarının iştirakçı ölkələrinin nümayiş etdirilən mədəniyyət nümunələri ilə tanış olmaq üçün Alabino poliqonundakı "Dostluq Evi"ndə olub.

Müdafiə naziri digər qonaqlarla birgə sərginin Azərbaycan bölməsində ölkəmizin tarixi, mədəniyyəti, adət-ənənələri və məişətinə aid ekspozisiyalara baxış keçirib. Nümayiş etdirilən ekspozisiyalar yarışlar keçirilən günlərdə qonaqların yaxından tanış olmaları üçün sərgilənəcək.

Müdafiə naziri "Səhra mətbəxi" müsabiqəsində iştirak edən hərbçilərimizlə də görü-

Tədbirdə, həmçinin ölkəmizin Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər iştirak ediblər.

"Beynəlxalq Ordu Oyunları-2018" yarışları və Azərbaycan Ordusunun nümayəndələrinin həmin yarışlarda iştirakı, göstərdiyi nəticələr ölkəmizin inkişafını və onun ordusunun gücünü bir daha nümayiş etdirir. Bu formatda yarışlar Azərbaycan Ordusunun hərbi qüdrətini beynəlxalq səviyyədə bir daha təsdiqləyir. Bu uğurları isə dövlətimiz və dövlətçiliyimiz naminə görülən işlərin davamı, gələcək nailiyyətlərin başlanğıcı hesab etmək olar.

**"Azərbaycan Ordusu"**

## Müdafiə naziri cəbhəboyu zonadakı hərbi hissələrdə olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə tikinti-quruculuq işləri davam etdirilir.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonadakı hərbi hissələrə gələrək tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçiriblər. Müdafiə naziri inşaat işlərinin gedişatını yoxlayıb və müvafiq tapşırıqlar verib.

Sonra nazir hərbi hissələrdə yaradılan şəraitlə tanış olub. General-polkovnik Zakir Həsənov qərargahda xidməti və inzibati otaqlara, hərbi-tibb müəssisələrinə, eləcə də hərbi texnika üçün nəzərdə tutulmuş saxlanclara, avtoparka baxış keçirərək konkret tapşırıqlar verib.



Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha şəxsi heyətin diqqətinə çatdıran Müdafiə naziri, qarşıda duran vəzifələrin icrası, xidməti şəraitin daha da yaxşılaşdırılması, hərbi qulluqçulara yüksək səviyyəli tibbi xidmətin göstərilməsi və bir sıra digər məsələlər barədə müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 iyul 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 103 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Şuraabad, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Seyidli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Türkiyə HDQ nümayəndə heyətlərinin görüşü



İyulun 30-da Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qərargahında Türkiyə Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti ilə görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Türkiyə arasında hər sahədə olduğu kimi, hərbi əməkdaşlığın uğurlu nəticələri və inkişaf perspektivləri müzakirə olunub.

Hərbi əlaqələrin hər iki ölkənin maraqlarına cavab verdiyi bildirilərək, bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulanıb.

Türkiyə HDQ-nin komandanının MTT üzrə müavini vitse-admiral Fikret Esin "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirakından son dərəcə məmnunluğunu ifadə edib. Yarışlarda ölkəmizin hərbi dənizçilərinə uğurlar arzulayıb. Ölkəmizə səfərdən məmnunluğunu bildirən qonaq Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmlənməsində bu cür görüşlərin, qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.




## Azərbaycan və Vyetnam HDQ nümayəndə heyətlərinin görüşü keçirilib

İyulun 31-də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) qərargahında HDQ-nin komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov ilə Vyetnam Sosialist Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Fam Haoi Namın rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi əməkdaşlığın inkişaf perspektivlərinin müzakirə olunduğu görüşdə tərəflər hərbi əlaqələrin hər iki ölkənin maraqlarına cavab verdiyini bildirirərək bu istiqamətdə səylərin daha da artırılmasının vacibliyi vurğulayıblar.

Vitse-admiral F.Nam hərbi əməkdaşlığın bundan sonra da davamlı olacağına əminliyini ifadə edərək qeyd edib ki, bu kimi səfərlər qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsinə töhfə verəcək.

## "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin başlanması ilə əlaqədar mətbuat konfransı keçirilib

Avqustun 1-də "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Bakıda keçiriləcək "Dəniz Kuboku-2018" beynəlxalq yarışlarının başlanması ilə əlaqədar mətbuat konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə keçirilən mətbuat konfransında məlumat verilib ki, "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində iyulun 28-dən avqustun 11-dək Azərbaycan, Belarus, Qazaxıstan, Çin, İran və Rusiya ərazisində ümumilikdə 28 müsabiqə təşkil olunacaq.

Azərbaycan hərbçiləri 5 müsabiqədə iştirak edəcəklər. Hərbçilərimiz ölkəmizdə keçiriləcək "Dəniz kuboku" ilə yanaşı Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrinə qatılacaqlar.

Hərbçilərimiz, həmçinin İranda keçiriləcək "Dərinlik" və Rusiyada təşkil olunacaq "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edəcəklər.

Yarışlarda müşahidəçi qismində Türkiyə, Pakistan, Bəhreyn, Səudiyyə Ərəbistanı və ABŞ Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

Bundan əlavə, mətbuat konfransı zamanı iştirak edən heyətlər tərəfindən döyüş hazırlığı poliqonlarına çıxış, müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə məşqlərin keçirilməsi haqqında ətraflı məlumat verilib.

Mətbuat konfransından sonra Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində avqustun 1-dən 10-dək Azərbaycanın Xəzər dənizindəki ərazi sularında keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsinin mərhələ və epizodlarının icrası üzrə püşkatma mərasimi keçirilib.

Mətbuat nümayəndələrinin sualları cavablandırılıb, müsabiqəyə cəlb olunan gəmilərə, xüsusi texnikalara, silahlara jurnalistlərin iştirakı ilə baxış keçirilib.

## "Dəniz Kuboku-2018" müsabiqəsinin mərhələ və epizodlarının icrası üzrə püşkatma mərasimi keçirilib



*"Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində avqustun 1-dən 10-dək Xəzər dənizinin Azərbaycana məxsus hissəsində keçiriləcək "Dəniz Kuboku-2018" müsabiqəsinin mərhələ və epizodlarının icrası üzrə püşkatma mərasimi keçirilib.*

AZƏRTAC xəbər verir ki, püşkün nəticələrinə əsasən, müsabiqənin birinci epizodunun yerinə yetirilməsində komandaların növbə üzrə sıralanması müəyyənləşdirilib. Sıralanmaya görə, epizodun icrasına müvafiq ardıcıllıqla Rusiya, Qazaxıstan, İran və Azərbaycan təmsilçiləri başlayacaqlar.

Püşkatmanın nəticələrinə əsasən, müsabiqənin növbəti beş epizodunun yerinə yetirilməsində komandaların sıralanması da müəyyənləşib. "Gəminin lövbərə və çəlləyə dayanması" üzrə 1-ci epizodun icrasına Rusiya birinci, Qazaxıstan ikinci, İran üçüncü, Azərbaycan dördüncü başlayacaq. "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə yarışı" üzrə 2-ci epizodu ardıcıllıqla İran, Rusiya, Azərbaycan və Qazaxıstan komandaları icra edəcəklər. "Xilasetmə vasitələrinin istifadəsi" üzrə 3-cü epizodun icrasına Azərbaycan birinci, Qazaxıstan ikinci, İran üçüncü və Rusiya dördüncü başlayacaq. "Kiçik dəniz hədəfi üzrə artilleriya atışı" üzrə 4-cü epizodun icrasını İran, Azərbaycan, Rusiya və Qazaxıstan ardıcıllıqla yerinə yetirəcək. "Hava hədəfi üzrə artilleriya atışı" üzrə 5-ci epizodun icrasına İran birinci, Rusiya ikinci, Qazaxıstan üçüncü və Azərbaycan dördüncü başlayacaq. "Üzən minanın məhv edilməsi" üzrə 6-cı və sonuncu epizodun icrası üzrə tapşırıqları Qazaxıstan, İran, Rusiya və Azərbaycan ardıcıllıqla yerinə yetirəcəklər.

## "Misir-Azərbaycan əlaqələri yüksək səviyyədədir"

Yaxın gələcəkdə Misir Afrika Ölkələri Liqasına, Azərbaycan isə Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu, ölkələrimizə bir-birini daha fəal şəkildə dəstəkləmək imkanı verəcək.

AZƏRTAC xəbər verir ki, bunu Misirin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim iyulun 27-də keçirdiyi mətbuat konfransında deyib.

Diplomat bildirib ki, Misir ilə Azərbaycan arasındakı əlaqələr yüksək səviyyədədir, lakin münasibətlərimizin daha da inkişafı üçün böyük potensial mövcuddur. Azərbaycan ilə Misir arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkili gözlənilir və bu səfərlərin reallaşması üçün işlər görülür.

## Qəbələdə X Beynəlxalq Musiqi Festivalı keçirilir

*Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını beynəlxalq musiqi festivalı iştirakçılarının üzünə açıb.*

Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə artıq 10-cu dəfədir keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən dünya musiqiçilərini bir araya gətirib. Gözəl bir ənənəyə çevrilən bu festival öz möhtəşəmliyi ilə xarici və yerli musiqiçilərin dərin rəğbətini qazanıb.

İyulun 30-dan avqustun 8-dək davam edəcək festivalın builki proqramı əvvəlki illərdə olduğu kimi, yenə də çox zəngindir. Musiqi bayramına Rusiya, İsrail, ABŞ, İsveçrə, Avstriya, Kuba, Macarıstan, Türkiyə, İspaniya, İtaliya, Gürcüstan kimi ölkələrdən dünya şöhrətli dirijor, ifaçı və kollektivlər, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri dəvət olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# "Gənc Heydərçilər"in yay istirahət düşərgəsi başa çatdı



*Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi "N" hərbi hissəsində "Gənc Heydərçilər"in hərbi vətənpərvərlik təmayüllü ənənəvi yay istirahət düşərgəsi başa çatdı. Bu münasibətlə hərbi hissədə təntənəli bağlanış mərasimi keçirildi.*

Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova, Müdafiə Nazirliyinin məsul əməkdaşı Əfqan Əliyev, Səbail rayon İcra Hakimiyyəti başçısının birinci müavini Xalidə Bayramova, hərbi hissənin rəhbərliyi və digər qonaqlar iştirak etdilər.

Tədbirdən əvvəl qonaqlar hərbi hissədə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət etdilər. Ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

"N" hərbi hissəsinin komandiri yay düşərgəsinin nəticələri barədə məlumat verdi.

Ombudsman tədbirdə çıxış edərək "Gənc Heydərçilər" adının əhəmiyyətindən danışdı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünün geniş qeyd edildiyini xatırlatdı.

Müvəkkil bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər böyük tarixi nailiyyətlərlə yanaşı, müsəlman Şərqində ilk demokratik respublikanın Milli Ordusu da yaradılıb. Ulu öndər Heydər Əliyevin məqsədyönlü siyasətini, o cümlədən onun ordu quruculuğu sahəsində mühüm fəaliyyətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi, 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması, bununla əlaqədar paytaxtda və regionlarda silsilə tədbirlərin təşkili hər bir azərbaycanlının, o cümlədən hərbçilərin, xaricdə yaşayan soydaşlarımızın ürəyində fərəh və sevinc hissi yaşadır. Son illərdə "Gənc Heydərçilər" düşərgəsinin təşkil edilməsinin gələcəyin əsgər və zabitləri olacaq uşaqların intellektual, fiziki hazırlığının yüksəlişinə, onların vətənpərvərlik ruhunda, milli mənəvi dəyərlərə sadiq formalaşmasına, gümrah böyüməsinə töhfələr verdiyini qeyd etdi və təşkilatçılara təşəkkürünü bildirdi.



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev bildirdi ki, yaşadığımız dövr gənc nəslin kiçik yaşlarından hərbi vətənpərvərlik ruhunda böyüməsini tələb edir. "Yeniyetmələrin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi dövlətin gənclər siyasətinin prioritet istiqamətlərindən biridir. "Gənc Heydərçilər"in yay istirahət düşərgəsi də bu amalın təzahürüdür. Layihə öz məzmunu etibarı ilə gələcəyin əsgər və zabitlərinin ordu həyatı ilə tanış olmalarını təmin etməklə, onların vətənpərvər ruhda böyüməsində, xalqımızın, dövlətimizin sadiq keşikçisi kimi formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Bu düşərgə böyüməkdə olan nəslə vətənpərvərliyin mühüm əlamətlərindən biri olan hərbi vətənpərvərlik tərbiyəsi aşılamaqla Vətəni dərindən sevməyi öyrədir, onlara orduda xidmətin müqəddəs borc və şərəf işi olması inamını təlqin edir. Digər tərəfdən, gələcəkdə hərbi xidmətə layiqincə hazırlamaq məqsədilə ilkin hərbi bilik, bacarıq və vərdişlər qazandırır, əqidəlilik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətləri inkişaf etdirir, mənəvi-psixoloji və fiziki hazırlığının yüksəldilməsinə kömək edir. Düşərgənin uşaqlara aşıladığı bunlarla da bitmir. Layihə onlara qarşılıqlı münasibətlərin əsas qaydalarını da öyrədir. Birgə düşünmək, ortaq qərar vermək vərdişi düşərgə iştirakçılarının əldə etdiyi ən böyük qazanca çevrilir."

Zabit onu da qeyd etdi ki, "Gənc Heydərçilər"in yay istirahət düşərgəsinin proqramına bu ildən yeni çalarlar əlavə edilmişdir. "Belə ki, onlarda Vətənə sevgi hissini daha da yüksəltmək məqsədilə mənəvi-psixoloji durumu, emosional dayanıqlığı sabit saxlamaq istiqamətində psixoloq tərəfindən psixoloji söhbətlər aparılmış, hafizəni, ixtiyari və qeyri-ixtiyari diqqəti, məntiqi təfəkkürü yoxlayan diaqnostik testlər keçirilmişdir." Zabit yeniyetmələrin psixoloji istiqamətdə aparılan söhbət, disput və sual-cavabda, sınaq testlərində böyük həvəslə iştirak etdiyini vurğuladı.

Səbail rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova gənc nəslə göstərilən dövlət qayğısından, gənclərin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən danışdı: "Hər bir millətin tərəqqisi gənclərinin alacaqları tərbiyədən asılıdır. Əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu yüksəltməkdir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Hər bir Azərbaycan gənci vətənpərvər olmalıdır. Gənclərin vətənpərvərlik ruhunun yüksək olması hər mənada dövlətin xeyrindədir. Fərqi yoxdur, həmin gənc gələcəkdə hərbçi, yoxsa digər peşə sahibi olacaq. Hansı peşə üzrə əmək fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq, gənc nəsildə vətənpərvərlik, torpağa, dövlətə sədaqət hissləri yüksək olmalıdır. Vətənpərvərlik hissinin güclənməsində əhəmiyyətli rol oynayan "Gənc Heydərçilər" layihəsi gənclərin vətənpərvər formalaşması, onların dünyagörüşünün daha da zənginləşməsi baxımından alqışa layiqdir."

X.Bayramova düşərgədə 2 həftə ərzində keçən mənalı və yaddaqalan istirahətin uşaqların xatirində silinməz izlər buraxdığına əminliyini də bildirdi.

"Gənc Heydərçilər" qonaqlar qarşısında düşərgədə olduqları müddətdə öyrəndikləri bilik və vərdişləri nümayiş etdirdilər. Onlar burada əleyhqazı cəld geyinib-soyunmağı, atıcı silahları natamam söküb-yığmağı, döyüş meydanında qalmış "yaralıya" ilk tibbi yardım göstərildikdən sonra onu xərəkdə döyüş meydanından çıxarmağı mükəmməl öyrəndilər. İştirakçıların davranışlarından 2 həftə ərzində səylə çalışdıqları hiss olunurdu.

Düşərgədə keçirilən müxtəlif yarış və müsabiqələrdə qalib gəlmiş yeniyetmələrə xatirə medalları və pedaqoji fəaliyyətlə uşaqların tərbiyəsi işlərində fərqlənmiş dəstə rəhbərlərinə və hərbçilərə qiymətli hədiyyələr təqdim edildi. Bu hədiyyələr onlara həmişə düşərgəni xatırladacaq.

Mükafatlandırma yekunlaşdıqdan sonra "Gənc Heydərçilər" təntənəli marşla tribunanın önündən keçdilər. Əsl əsgər yerişi ilə yeriməyə can atan yeniyetmələr, həqiqətən, inamla gözəl sıra imitasiyası effekti yaratdılar.

Tədbirdən sonra "Gənc Heydərçilər"lə söhbət etdik.

**Orxan Ramazan oğlu İsmayıllı:**

- Atam hərbçidir. Onun söhbətlərini həmişə maraqla dinləmişik, dinləyirik. Mən də, qardaşım Emin də. Bu söhbətlər bizdə hərbçi peşəsinə maraq oyadırdı. "Gənc Heydərçilər"in yay istirahət düşərgəsi bizim bu marağımızı istəyə çevirdi. Ata söhbətləri bizi maraqlandırmışdı, bu düşərgə marağımızı daha da artırdı. İki həftə ərzində əsl hərbçi həyatı yaşadıq. Ciddi nizam-intizam, bu və ya digər silahla əyani tanışlıq, onların istifadə qaydalarını öyrənmək, müxtəlif əyləncələr, viktorinalar, yarışlar yaddaşımızdan heç vaxt silinməyəcək. "Gənc Heydərçilər"in yay istirahət düşərgəsində hərbçilərlə müxtəlif mövzularda söhbətlərimiz oldu. Bu söhbətlər hər birimizin vətənpərvərlik duyğularını daha da artırdı. Burada Vətəni necə sevməyi əyani gördük. Etiraf edim ki, tez böyüməyi heç vaxt indiki kimi arzulamamışdım. Tez böyümək, hərbi xidmətdə olmaq, hərbçi olmaq istəyi çoxumuzun arzusuna çevrildi. Yay düşərgəsində təşkil edilən müxtəlif görüşlər bizə Vətəni sevməyi öyrətdi. Bu düşərgəni məktəbin davamı bilirik. Belə bir şərait yaradıldığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə "Gənc Heydərçilər" adından təşəkkürümü bildirirəm.



Burada görüşlərin birində eşitdiyim bir fikri də unutmayacam: "Hər birimiz layiqli vətəndaş olmalıyıq". Biz yaşda uşaqlar daha yaxşı oxumaqla yaxşı vətəndaş ola bilərik. Yaxşı oxuyacağıq, yaxşı vətəndaş olacağıq, vaxtında yaxşı hərbçi olacağıq.

**Emin Ramazan oğlu İsmayıllı:**

- "Gənc Heydərçilər" yay istirahət düşərgəsi biz yaşda uşaqlar üçün əsl məktəbdir. Valideynlərimizdən, müəllimlərimizdən eşitdiklərimizi burada gördüklərimiz tamamladı. Burada Vətəni qoruyanların nizam-intizamını gördük. Gördük ki, yüksək nizam-intizam əsgərlərimizi daha da gücləndirir. Silahlarla, döyüş texnikaları ilə tanış olduq. Gördük ki, əsgərlərimiz bu texnikaları məharətlə idarə edir. Əmin olduq ki, onlar döyüşlərdə düşməni məhv etməyə qadirdirlər.

Yay istirahət düşərgəsində müxtəlif mövzularda söhbətlər də dinlədik. 2016-cı ilin aprel döyüşləri haqqında söhbəti hər birimiz maraqla dinlədik. O döyüşlərdə qazanılan qələbənin sevincini yenidən yaşadıq. Əmin olduq ki, ordumuz güclüdür, qüvvətlidir, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Mən də, qardaşım Orxan da digərləri kimi "Gənc Heydərçilər"in yay istirahət düşərgəsindən olduqca razı qaldıq. Yay istirahət düşərgəsi hər birimiz üçün əsl məktəb oldu, çox şeylər öyrəndik. Ən əsası burada Vətəni sevənlərin əhatəsində hərbçi həyatı yaşadıq, hərbçi peşəsinə marağımız artdı. Mən də, qardaşım da qətiyyətlə qərara aldıq ki, hərbçi olaq, atamızın yolunu davam etdirək.

**İmran Məzahir oğlu Aslanlı:**

- Düşərgələr haqqında çox eşitmikdik. "Gənc Heydərçilər"in yay istirahət düşərgəsi haqqında da məlumatım vardır. Bu il mən də burada istirahət etdim, gördüm, öyrəndim. Gördüklərimiz, öyrəndiklərimiz bizdən daha yaxşı oxumağı tələb edir. Bizə belə şərait yaratdıqlarına görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarıq, bu etimadı yaxşı oxumaqla, nizam-intizamlı olmaqla, Vətəni daha dərindən sevməklə doğruldacağam. Təsdiq edəcəyik ki, "Gənc Heydərçilər" əsl vətəndaş kimi böyüyüb, əsl vətəndaş gənc olacaq, əsgər olacaq.

İllər keçəcək onlar həmin inamla əsl əsgər kimi Vətənə xidmət edəcəklər.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Ümummilli lider Heydər Əliyevin dilimizə olan böyük sevgisi

Ümummilli lider Heydər ƏLİYEV:

*Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.*



*Dilin zaman-zaman hərtərəfli inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Ümummili lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi.*

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi qəbul edilmişdir.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası prezidentinin 2001-ci il 18 iyun tarixli fərmanı və Nazirlər Kabinetinin 25 iyun 2001-ci il tarixli 113 saylı sərəncamı ölkənin təhsil sistemində dövlət dilinin - Azərbaycan dilinin tədrisi və latın qrafikasının tətbiqi sahəsində icra üçün direktiv hüquqlu normativ sənəd kimi qəbul edilmişdir.

Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli Lider demişdir: "Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dahi rəhbərin dil siyasətini də uğurlu davam etdirir, Dövlət Dil Komissiyasının rəhbəri kimi dilimizə dövlət səviyyəsində diqqət və qayğı göstərilir.

Respublika Prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda demişdir: "Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, bir millət kimi qoruyub... Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur. Biz əsrlər boyu dilimizi qorumuşuq, bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Digər tərəfdən, gənc nəsil imkan verməməlidir ki, ana dilimizə yad kəlmələr daxil olsun. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır."

Dilin qorunmasında və inkişafında məktəbin, xüsusilə Azərbaycan dili və ədəbiyyat müəllimlərinin rolu böyükdür. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Azərbaycan dili və ədəbiyyatı müəllimləri kursantların orfoqrafik və orfoepik normalara tam şəkildə riayət etmələri üçün bütün dərs və məşğələlərdə ədəbi dilin normalarını, bu normaların tələblərini ətraflı izah etməyə, başa salmağa çalışırlar. Biz kursantlara - gələcəyin zabitlərinə nitq mədəniyyətini tədris edə-edə həm də dilimizi sevdiririk. Bildiyimiz kimi, dil və nitq bir-biri ilə üzvi şəkildə bağlıdır. Ünsiyyət prosesi olan nitq dilin ifadə imkanları əsasında meydana çıxır. Nitq dildən törəyir, dinləyib-anlama, dinləyib anlatma, başa düşmə, danışma, oxu və yazı formalarında təzahür edir. Biz bütün dərs və məşğələlərdə kursantların nitqində ədəbi dilin fonetik, leksik normalarına riayət etmələrinə məsuliyyətlə yanaşırıq. Həm də bunun nəticəsidir ki, bu gün onlar dilimizi çox gözəl bilir və onu ürəkdən sevirlər.

Biz dərs və məşğələ prosesində kursantlara ulu öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafı istiqamətində gördüyü cahanşümul və səmərəli işlərdən, həyata keçirdiyi uğurlu islahatlardan da ətraflı danışırıq. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən Azərbaycanın iqtisadiyyatının inkişafı ilə yanaşı, mənəvi-mədəni həyatını da diqqətindən kənarda qoymamış, bu sahədə də böyük işlər görmüşdür. Onun zəngin təcrübəsi, fitri təşkilatçılıq qabiliyyəti və istedadı, həm Şərq, həm də Qərb dünyasını yaxşı tanıması, mənsub olduğu xalqın mentalitetinə bələd olması respublikanın mənəvi-mədəni iqlimin inkişaf perspektivlərinin dəqiq müəyyənləşdirilməsini təmin edirdi.

Ötən əsrin 70-ci illərində respublikanın iqtisadi, ictimai-siyasi və mədəni ideoloji həyatında böyük dönüş yaradan ulu öndər Heydər Əliyev dil məsələsinə də böyük önəm verirdi. Ölkə başçısı ana dilinin inkişafı ilə əlaqədar fəaliyyətini bir neçə istiqamətdə qururdu. Bunlardan birincisi, heç şübhəsiz ki, Ulu Öndər bu sahədə həmişə şəxsi nümunə olmuşdur.

Ümummilli Lider 1970-ci ildə Bakı Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən təntənəli yığıncaqda ana dilində çıxış etdi. Dahi rəhbərin ana dilinə verdiyi qiymət, bu dilin inkişafı, yayılması, böyük ictimai-siyasi mövqeyə malik olması üçün gördüyü işlər cəmiyyətdə milli şüurda həmişə öz təsir gücünü saxlayırdı.

Ulu öndər Heydər Əliyevin qətiyyətli və prinsipial mövqeyi, ciddi səyi nəticəsində keçmiş SSRİ-nin 1978-ci ildə qəbul edilmiş yeni Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu. O zamankı reallıqla belə bir qərarın qəbulu xalqımız üçün kifayət qədər ciddi bir hadisə idi.

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev 70-ci illərin əvvəllərindən dil sahəsində başladığı islahatları uğurla davam etdirdi. Ümummilli Lider gənc nəslin ana dilini düzgün, hərtərəfli və elmi əsaslar zəminində mənimsəməsini tövsiyə etmişdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq."

Biz ulu öndər Heydər Əliyevin dəyərli ideyalarını gənc nəslə həvəslə öyrədirik.

**Peykər HƏBİBOVA,**
**C.Naxçıvanski adına**
**Hərbi Liseyin müəllimi**




# Ana dili hər bir xalqın milli kimliyidir

Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Hər bir xalqın öz Ana dili onun milli sərvəti, varlığının təsdiqi, həmçinin milli kimliyidir. Millətin dili, əlifbası onun millət olaraq formalaşmasında vacib şərtlərdən biri kimi qəbul edilir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, birinci növbədə onun Ana dilində öz əksini tapır. Ana dili həm də çətin tarixi-siyasi dövrlərdə millətin varlığının yaşadılması üçün əsas vasitələrdən də hesab olunur. Dilini itirən xalq məhvə məhkumdur. Doğma Ana dilimiz olan Azərbaycan dili xalqımızın milli sərvətidir. Tarix yaşadıqca xalqımız bu sərvətin qayğısına qalmalı və dilimiz gələcək nəsillərə ötürülməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Ümummilli lider Heydər Əliyev deyirdi ki, xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir. 1995-ci ildə ilk milli Konstitusiyamıza Azərbaycan dili dövlət dili kimi qəbul edildi. 2001-ci ilin iyulunda Ulu Öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı imzalandı. Eyni zamanda, həmin vaxtlarda Dil Şurası da yaradıldı. Çox keçmədi ki, 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü təsis olundu. Ümumiyyətlə, bu bir tarixi faktdır ki, dünyanın böyük liderləri içərisində, o cümlədən Türk dünyasında ümummilli lider Heydər Əliyev qədər dil məsələsini dövlət siyasəti səviyyəsinə qaldıran lider olmayıb. Ana dili amilinin çox böyük əhəmiyyəti var idi. Çünki bu amil millətin özünüdərki üçün çox mühüm məsələ idi. Ona görə də o böyük tarixi şəxsiyyət Ana dilini milli dəyər səviyyəsinə qaldırmağı bacardı.

Əlifbaya keçid hər zaman çox mürəkkəb məsələ kimi böyük tarixi bir prosesi əhatə edir. Azərbaycanda coxlu sayda əlifbalar dəyişib, lakin dəyişikliyin xalqımızın mədəniyyətinə, tarixinə, dilinə nə qədər ziyan vuran məsələ olduğunu çox gözəl dərk etmişik. Amma latın qrafikasına keçidin isə müsbət çəhətləri çoxdur. Bilirik ki, ölkəmizdə yeni əlifbaya keçid 10 ilə qədər davam edib. Bu proses ötən əsrin 90-cı illərin əvvəllərindən başlayıb, 2001-ci ildə isə yekunlaşdı.

Azərbaycanda latın əlifbasına ilk olaraq məktəblər, ikinci dövlət müəssisələri, sonuncu isə mətbuat keçdi. Ümummilli Liderimizin həyata keçirdiyi




ana dili siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Latın qrafikasında kütləvi nəşrlərin hazırlanması bunun parlaq göstəricisidir. Dövlət başçısı İlham Əliyev doğma ana dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qarafikasında yenidən nəşr edilməsi məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə baş tutdu. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı eyni zamanda Əlifba ilə bağlı problemləri tamamilə həll etmiş oldu. Beləliklə, görülən işlərin nəticəsində kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu.

Gündən-günə qloballaşan dünyamızda Azərbaycan dilinin qorunub saxlanması və inkişaf etdirilməsi bu günümüzün ən zəruri məsələlərindən, ən vacib reallıqlarındandır. Onu da vurğulamaq lazımdır ki, Azərbaycan dili 50 milyondan artıq soydaşımızı bir-biriylə birləşdirən və onları biri-biriylə doğmalaşdıran atributdur.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Qoşunlarda yeni tədris dövrü başlayıb



*Azərbaycan Ordusunun birlik, birləşmə, həmçinin qoşun növləri və qisimlərinin hərbi hissələrində yeni tədris dövrü başlayıb. Bütün hərbi hissələrdə keçirilən yığıncaqlarda tədris dövrünün əsas məqsəd və vəzifələri, eləcə də onların icra qaydaları şəxsi heyətə çatdırılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yeni tədris dövrünün başlanması ilə əlaqədar təşkil olunmuş tədbirlərdə Müdafiə nazirinin



əmr və tələbləri, tədris proqramları, silah və texnikanın effektiv istifadəsi, təhlükəsizlik qaydalarına riayət olunmasının əsas vəzifə və tapşırıqları, həmçinin bütövlükdə tədris prosesinin düzgün təşkili üzrə digər məsələlər şəxsi heyətə çatdırılıb.

Dərslərin ilk günü eyni zamanda şəxsi heyətin həyəcan siqnalı üzrə davranışı, döyüş heyətlərinin dəqiqləşdirilməsi, eləcə də şəxsi heyətin sutkanın gecə və gündüz vaxtlarında bölmələr tərkibində məşqləri ilə başlayıb.

# Azərbaycan hərbçiləri "Layiqli Tərəfdaş-2018" təlimində iştirak edəcəklər

*Azərbaycan Ordusunun hərbi qulluqçuları avqustun 1-dən 15-dək Gürcüstanın Vaziani və Norio təlim mərkəzlərində keçiriləcək "Layiqli Tərəfdaş-2018" (Noble Partner 2018) çoxmillətli təlimində iştirak edəcəklər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin məqsədi NATO standartlarını tətbiq etməklə NATOSNT və tərəfdaş qüvvələrin bölük səviyyəsində bölmələrinin uzlaşmasını və çöl vərdişlərini təkmilləşdirmək, eləcə də müxtəlif tapşırıqları icra etməkdir.

Təlimdə 13 ölkədən (Azərbaycan, Gürcüstan, Ermənistan, Almaniya, Fransa, Estoniya, Birləşmiş Krallıq, Litva, Polşa, Norveç, Türkiyə, Ukrayna və ABŞ) 3000-dən artıq hərbi qulluqçu iştirak edəcək.

# Gənclər Fondu cəbhə bölgəsinə səfər təşkil edib

*Gənclərin vətənpərvər ruhda yetişməsi, dövlətə və milli-mənəvi dəyərlərə bağlı vətəndaş kimi formalaşması istiqamətində Azərbaycan Respublikasının Gənclər Fondunun uğurlu fəaliyyətinin davamı kimi Silahlı Qüvvələrimizin yaranmasının 100 illik yubileyi münasibətilə "N" hərbi hissəsində xidmət edən əsgər və zabitlərlə görüş keçirilib.*

Fonddan AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissədəki abidəsi önünə gül dəstəsi düzərək, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov və general-mayor Hikmət Həsənov Azərbaycan Ordusunun tarixindən, ölkəmizdə ordu quruculuğundan, Silahlı Qüvvələrin formalaşması və inkişafında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıblar.

Bildirilib ki, Ulu Öndərin ordu quruculuğu siyasəti bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrə göstərilən xüsusi qayğının nəticəsidir ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusuna çevrilib. Ordumuzun hərbi qüdrəti və peşəkarlığı sayəsində cəbhə xəttində Ermənistan silahlı birləşmələrinin bütün təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınır, düşmənə layiqli cavab verilir.

Çıxışlardan sonra hərbi xidmətdə göstərdikləri şücaətə görə bir qrup əsgər və zabit fəxri fərman və hədiyyələrlə təltif ediliblər.

Tədbirin bədii hissəsində hərbi-vətənpərvərlik mahnılarının məşhur ifaçısı Şəmistan Əlizamanlının konserti olub, əsgərlərlə maraqlı interaktiv müsabiqələr keçirilib.

Nahar fasiləsi zamanı qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

Həmçinin 2016-cı ilin aprel döyüşlərində erməni işğalçılarından azad olunan ərazilərə səfər edilib, təmas xəttində xidmət edən əsgər və zabitlərlə görüş keçirilib.

*İyunun 26-da Bakıda Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunan parad keçirilib. Paradda ordumuzun arsenalında olan ən son texnikalar nümayiş olunub. Paradda texnikalar, uçuş vasitələri, silahlanmaya yeni qəbul edilmiş müasir zirehli texnikalar, raket və artilleriya qurğuları və s. təqdim edilib. Hərbi paradda Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin və Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyətləri iştirak ediblər. Bundan əlavə, parada Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyəti də qatılıb. Paradda iştirak etmiş zirehli transportyor şəxsi heyətinin fikirlərini öyrəndik.*

# Əlamətdar gün - tarixi parad



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elmir Zeynalov Ağdam rayonunda anadan olub. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılıb. Həqiqi hərbi xidmətini bitirdikdən sonra orduda qalmaq istəyini bildirib. Hazırda zirehli transportyor sürücüsü kimi xidmət edir. Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə keçirilən paradda zirehli transportyorlardan birini o idarə edib. E.Zeynalov parad haqda fikirlərini bizimlə bölüşərək bunları deyir: "Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi ilə bağlı keçirilən paradda iştirak etdiyimə görə qürur hissi keçirirəm. Mən fəxr edirəm ki, bu gün 100 yaşı tamam olan güclü bir orduda xidmət edirəm. Biz bu yubileyi böyük coşqu ilə qeyd etdik. Paradda növbə gəlib bizə çatanadək çox həyəcanlanırdım. Amma çoxlu məşqlər keçirmişdik və hansısa bir səhv edə biləcəyimi heç düşünə də bilməzdim. Mənim fikrimcə parad möhtəşəm keçib. Bu paradla biz nəinki düşmənə, hətta bütün dünyaya Azərbaycan Ordusunun nə qədər güclü və qüdrətli olduğunu göstərdik. Bununla belə, Ali Baş Komandan İlham Əliyevin "Döyüşə!" əmrinə hazırıq, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. O gün uzaqda deyil..."

Əsgər E.Zeynalovun idarə etdiyi zirehli trasnportyorun komandiri Araz Sadıqov isə belə söylədi: Bu möhtəşəm parad heç vaxt heç kimin yadından çıxmayacaq. Paradda döyüş maşını komandiri idim. Əmr verilən kimi, hərəkətə başladıq. Mənim üçün bir şərəf oldu ki, Vətənimin belə əlamətdar günündə orada iştirak etdim. Azərbaycan Ordusunun şəxsi heyəti istənilən zaman xalqına qələbə sevinci yaşatmağa tam qadirdir. Ordumuz çox güclü, iradəli, nizam-intizamlı bir ordudur. Belə nailiyyətlərə gəlib çıxmaq üçün ordumuz 100 illik böyük bir yol keçib."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Bəhmən Hətəmov Ağcabədi rayonunda anadan olub. 3 ildir ki, Azərbaycan Ordusu sıralarında xidmət edir. Hərbi parad haqqında öz təəssüratlarını belə ifadə etdi: "Ordumuzun 100 illiyi münasibətilə keçirilən hərbi paradda iştirak etmək mənim üçün də böyük bir şərəf idi. Parada hazırlıq yüksək səviyyədə təşkil olunmuşdu. Biz dünyaya Azərbaycan Ordusunun hansı gücə, nizam-intizama malik olduğunu göstərdik. Mən fəxr edirəm ki, dövlətimizin bü gün belə bir güclü ordusu var. Şəhərimizin əhalisinin parada sevinc hissi ilə baxmağı insana bir ayrı qürur hissi verirdi. Mən əminəm ki, ordumuz torpaqlarımızı işğaldan azad etmək gücündədir."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Pərviz Şəmirov Azərbaycan Ordusu sıralarında 8 ildir ki, xidmət edir. O, Göygöl rayonunda anadan olub.

P.Şəmirov təəssüratlarını ifadə edərək dedi ki, paradda iştirak etdiyi üçün qürur hissi duyur. "Hərbi paradın möhtəşəm keçməsi yüksək hazırlığın nəticəsidir. Hərbi texnikanı idarə edən zaman insanların necə ordumuzla, bizimlə qürur duyduğunun şahidi oldum. Biz Vətənimizi qoruyuruq. Mən Azərbaycan Respublikasına xidmət etməyimlə fəxr edirəm."

**Kursantlar**
**Əli ABIYEV,**
**İbrahim MƏMMƏDBƏYOV**

Ovqat

# Şair sözü yalan deyil

*Söz peyğəmbərimizin - böyük Füzulimizin ruhu məni bağışlasın, "Aldanma ki, şair sözü əlbəttə yalandır" misrasına inanmıram...*



Rəşid Faxralı jurnalistdi...

Rəşid Faxralı şairdi...

"Müharibə nə vaxt qurtaracaq?", "Zaman, biz və kişiliyimiz", "Goranboy əməliyyatı", "Ömrün üfüqləri", "Könlüm cənnət qapısıdı", "Ömür düsturu", "Səngərdən əbədiyyətə", "Oğuz eli Faxralı", ... kitablarının, müxtəlif mətbu orqanlarında, bu sıradan "Azərbaycan Ordusu" qəzetində dərc edilən məqalələrinin zəmanətiylə qətiyyətlə deyirik ki, Rəşid Faxralı vətəndaş-jurnalistdi, vətəndaş şairdi - nə yazırsa ürəklə yazır, ürəyini yazır. Nə yazırsa dövlətə, dövlətçiliyə, Vətənə sədaqətlə yazır; Rəşid Faxralının yaradıcılığının qayəsi vətənpərvərlikdi...

Rəşid Faxralı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə əməkdar jurnalist fəxri adına layiq görülüb...

2016-cı ilin aprel zəfəri ordumuzun gücünü təsdiqlədi, ordu ilə xalqın birliyinin, milli-xəlqi ruhun qələbəsi kimi tarixləşdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu qələbəni "Aprel zəfəri dərsliklərə salınmalıdır" - kimi dəyərləndirdi. Rəşid Faxralı bu zəfərdən iki kitab yazdı: " Lələtəpə", "Bayraqtəpə". Hər iki kitab bədii-publisistik və yüksək poetik dəyəri ilə səciyyəvidir, istər mövzu baxımından (tarixi qələbə haqqında yazılıb), istərsə də yaradıcılıq baxımından (yüksək publisistik və poetik səviyyədə yazılıb) dəyərlidir. Hər iki kitab aprel zəfərindən az sonra nəşr olunub, müxtəlif hərbi hissələrdə əsgərlərimizə təqdim edilib...

"N" hərbi hissəsində şair-jurnalist Rəşid Faxralıyla əsgər və zabitlərin görüşünü vətənpərvərlik dərsi adlandırmaq mümkündür. Böyük səmimi mükalimələşməydi...

Mayor Ramazan Orucov Rəşid Faxralını toplaşanlara təqdim edərək əsgərlərə bu sayğıya görə təşəkkürünü bildirdi: "Həqiqətən də, Səməd Vurğun demişkən, könüldən-könülə yollar həmişə olub, indi də var. Ali Baş Komandanın, Müdafiə Nazirliyinin rəhbərliyinin bütün əmr və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirən əsgərlərimizin hər biri Lələtəpə qələbəsini qazananların xidmət etdiyi hərbi hissədə xidmətlərindən qürur duyur. Bu görüşü də unutmayacaqlar"...

Rəşid Faxralı nə dedi?

Siz xalqın əzizisiniz, hər biriniz hər birimizin əzizisiniz. Xalq sizi sevir, sizə güvənir. Bu sevgi, bu güvənc sizin Vətənə xidmətinizə verilən dəyərdi. On-on beş gün əvvəl dayanacaqda eşitdiklərim mənə bəşəri bir duyğu yaşatdı:

Orta yaşlı bir kişi istidən gileylənirdi. O yaşlarda başqa birisi onu qınadı:

- İstidən, bürküdən təntiyəndə sərinliyə çəkilirik. Bəs səngərdəkilər, döyüş növbətçiliyi aparanlar, torpaqlarımızı, səni, məni, bizi qoruyanlar neyləsin? Onları xatırlayın...

Ikinci kişinin xalqı təmsil etdiyinə kimsə tərəddüd etməyəcək. Siz belə bir sev-gi ilə əhatələnibsiniz, baxışlarınızdan oxunur ki, hərbi xidmətinizi həm də bu dönməz sevginin ödənci bilirsiniz.

Neçə il əvvəl ezamiyyətdə əsgərlərlə kəlmələşirdim. Söz sözə söykək olurdu, söz sözü çəkirdi. Vətəndən danışırdıq, Ermənistanın Azərbaycandan ərazi iddiasından, bu iddianın davamı kimi elan edilmədən başlayan müharibədən, qəhrəmanlarımızdan, şəhidlərimizdən, ... danışırdıq. Əsgərlərimizin dünyaduyumu, dumduru düşüncələri, Vətən sevgisi, qətiyyəti, bir də hər birinin kəlmələşə-kəlmələşə qarşı tərəfdən üzülməyən baxışları ürəyimi telləndirmişdi. Onda yazmışdım ki,

Səngərlərdə oğul gördüm,  
Özümə yazığım gəldi...

Bu duyğuları yaşadığına görə özünə yazığı gələnlərə yazığım gəlir. Sizin ürəyinizdən başlayan Vətənə Vətən daşı olmaq üçün yaşamırıqmı?

Əsgərlər şair sözünü, jurnalist sözünü maraqla dinləyirdi. Mənə elə gəlirdi ki, əsgərlər şair sözünün yalan olmadığına əminliklə dinləyirdilər.

Rəşid Faxralı Bayraqtəpə qələbəsindən danışırdı, "Bayraqtəpə" kitabından danışdı:

- Bu kitabın müəllifi əsgərlərdi, zabitlərdi, mən sadəcə onu kağıza köçürmüşəm. Mənəvi borcödəmək kimi. Samidlərin, Raqufların,... ruhunun işığında. Onların amalının davamçıları sizsiniz. Başlanğıcı 2016-cı ilin aprel zəfəri olan Böyük Qələbəni siz qazanacaqsınız. "Lələtəpə" kitabım



Qürur zirvəsisən,  
Lələtəpəmiz,  
Sənu bayraq edən qollar  
görünür.  
Sağında, solunda  
yollardı...  
Burdan  
Şuşaya aparan yollar  
görünür! -

misralarıyla tamamlanır. Bu yol Sizin yolunuz olacaq. Bu yola Zəfər yolu deyəcəyik. Böyük Qələbədən sonra yazacağım "Böyük Qələbə" kitabının qəhrəmanları siz olacaqsınız.

Nə dedi Rəşid Faxralı?

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev qətiyyətlə deyib: "Azərbaycan dövləti, xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək", "Azərbaycan xalqı bu işğalla barışmayacaq". Barışmazlıq Böyük Qələbəyə çağırışdı. Bu çağırışı siz gerçəkləşdirəcəksiniz. Siz - Mübarizləşən, Samidləşən, Raquflaşan, Çingizləşən əsgərlərimiz.

Bakıda ordumuzun 100 illiyinə həsr olunmuş parad da təsdiqlədi ki, Azərbaycan Ordusu güclü ordudu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadı. Siz bu ordunun əsgəri olmağınızla böyük qürur duyursunuz. Bu qürur qazanacağınız qələbənin stimuludu...

Şirin kəlam həmişə könül xoşluğu olub. Şirin kəlamların könül xoşluğu indi də hiss olunur: Bu anlar Azərbaycan Ordusunun qüdrətinə dönməz inamla yaşanılır...

Nə dedi Rəşid Faxralı?

Dövlət bayrağımız bütün vətənsevərlərin qürurudu, heysiyyətidi. Hər birinizin bayrağa sevgimiz Vətənə sevginizdir, dövlətə, dövlətçiliyə sevginizdir.

Əllərdə, könüllərdə və  
dillərdə qərar tut,  
Olsun bu Vətən torpağı  
başdan-başa bayraq! -

misraları sizin də, sizə güvənən xalqın da amalıdır. Siz o bayrağın əsgərisiniz. Sizdən sonra sizin işğaldan azad edəcəyiniz torpaqlarda xidmət edən əsgərlər də bayrağın əsgəri olacaq.

Əsgərin ürəyindən keçənləri duymaq çətin deyildi: Bayrağımızı Şuşada mən dalğalandıracam!..

Rəşid Faxralı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun 100 illiyinə həsr olunan paradda dediklərini də xatırlatdı: "2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq, Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq."

Siz həm də bu inamın əsgərisiniz!..

"Bayraqtəpə" kitabına aprel döyüşləri haqqında məqalələr və "Zəfər sənin zəfərindir" poeması daxil edilib. Azərbaycan əsgərinə həsr olunan bu kitab sizin kitabınızdı. Poemanın sonluğunu hər biriniz özünüzə aid edə bilərsiniz, qəhrəmanlarımızın yolunu Böyük Qələbə ilə tamamlayacaq əsgər kimi:

Tarixi bir ədalətin  
var səsiylə vuruş, oğul!  
Ucalığın yaraşığı  
bayraq olub,  
sən də bayraq sevgisiylə  
vuruş oğul!

... Şair sözü yalan deyil, gerçək mətləbin gerçək ifadəsidi. Şair-jurnalist Rəşid Faxralının "N" hərbi hissəsində əsgərlərlə görüşündə bunun bir daha şahidi oldum...

**Mübariz MUSAYEV,**  
**"Azərbaycan Ordusu",**  
**fotolar**  
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər:

## hadisələr, faktlar

### Türkiyənin Tunceli vilayətində 10 terrorçu zərərsizləşdirilib



Türkiyənin təhlükəsizlik qüvvələri ölkənin Tunceli vilayətinin Pülümür rayonunda 10 terrorçunu məhv edib. Əraziyə əlavə polis qüvvəsi cəlb olunub.

Yerli sakinlər bir qrup silahlının terror hazırlığı görməsi barədə polisi məlumatlandırıb. Keçirilən antiterror əməliyyatına havadan dəstək verilib.

Bölgədə antiterror əməliyyatı davam etdirilir.

### ABŞ-ın müdafiə naziri: Türkiyə ilə hərbi əlaqələrimiz yüksək səviyyədədir



ABŞ ilə Türkiyənin hərbi əlaqələri yüksək səviyyədədir.

Bu fikirləri ABŞ-ın müdafiə naziri Ceyms Mettis bildirib.

Qeyd edək ki, ABŞ Prezidenti Donald Trampın sosial şəbəkədə keşiş Andru Kreyq Brunsonun azad edilməyəcəyi təqdirdə Türkiyəyə sanksiyaların tətbiq ediləcəyi barədə ifadələri qardaş ölkədə kəskin etirazla səbəb olub. Hazırda ev dustağı olan Andru Kreyq Brunson Türkiyədə terroru dəstəkləmək, FETÖ və PKK terror təşkilatları ilə əməkdaşlıq etmək və s. qanunazidd əməllərdə təqsirli bilinir.

### Nigeriyada “Boko Haram” qruplaşmasının hücumu nəticəsində 11 nəfər həlak olub



Nigeriyada "Boko Haram" radikal qruplaşmasının hərbi nəzarət-buraxılış məntəqəsinə hücumu nəticəsində 11 nəfər həlak olub.

Radikal qruplaşmanın yaraqlıları, həmçinin hərbiçilərin nəqliyyat vasitələrini ələ keçiriblər.

### Çexiyada ordunun say tərkibi artırılacaq



Çexiya ordusu Baş Qərargah rəisinin müavini İrji Baloun bildirib ki, 2026-cı ilədək Silahlı Qüvvələrin say tərkibinin 30 min nəfərə çatdırılması planlaşdırılır. Hazırda ölkədə hərbçilərin sayı 21 nəfərə yaxındır.

Baş Qərargah rəisinin müavini qeyd edib ki, mövcud hərbi hissələrin ştat vahidi 25 min hərbçiyədək artırılacaq və Silahlı Qüvvələrin yeni növlərində - kibernetika qoşunları, robot texnikası və digər yüksək texnologiyalar şöbələrində daha 5 min yer açılacaq.

Artıq Brno Universitetində ordunun ehtiyacları üçün kibernetika sahəsində yeni ixtisas üzrə tədris aparılması nəzərdə tutulur.

### Braziliyada dövlət binalarına atəş açılıb



Braziliyada 8 ictimai avtobus atəşə tutulub və bəzi dövlət binalarına atəş açılıb.

Ceara əyaləti polisi dünən gecə Fortaleza şəhərinin müxtəlif yerlərində 8 avtobusun yandırıldığını, bəzi dövlət binalarına da atəş açıldığını bildirib.

Hücumlarda ölən və yaralananların olmadığı bildirilir.

Ceara ictimai təhlükəsizlik idarəsi hücumlarla əlaqəli olduğu hesab edilən 3 nəfəri müəyyən edib və onların tutulması istiqamətində əməliyyata başlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Şuşaya bayrağımızı biz sancacağıq!

Yaşıllıqlarla əhatə olunmuş yaşayış məntəqəsini arxada qoyaraq Vətənin keşikçilərinin yanına tələsirik. Kəndin içindən keçərkən qoca nənənin başına toplaşan bir neçə oğlan uşaqlarını görürük. Avtomobilimizi yolun kənarında saxlayaraq nənə və gələcək əsgərlərimizə yaxınlaşırıq. Əslən Kəlbəcər rayonundan olan Firuzə nənə bizim hərbi formada olduğumuzu görən kimi, bizə tərəf irəliləyərək boynumuzu qucaqlayır, üzümüzdən öpür. Elə bil bizi görən kimi nurani qocanın dərdi təzələnir. O, bizə düşmən tapdağı altında olan torpaqlarımızın gözəlliyindən, havasından, suyundan, təbiətindən və oralarda keçirilən toy-bayramlardan danışır. Gözlərindən yaş gələrək aprel döyüşlərində Vətənimizin azadlığı uğrunda şəhid olan oğullarımızı xatırlayır. Aprel zəfərinin Böyük Qələbənin müjdəçisi olduğunu bidirən ağbirçək ana, Azərbaycan əsgərinin gücünü, qüdrətini, qələbə əzmini fitnəkar qonşularımıza bir daha sübut etdiyini deyir. Nur üzlü nənə qeyrətli oğullarımıza güvəninin sonsuz olduğunu da bildirməyi unutmadı. Sağollaşarkən Firuzə nənənin bir arzusu olduğunu öyrənirik - son nəfəsində olsa belə doğma el-obasını, doğulub boya-başa çatdığı evini bir daha ziyarət etmək.



Döyüş mövqeyindəyik, söhbətləşən iki əsgəri görürəm. Bizi müşayiət edən baş leytenant Şirbala Hüseynov əsgərlərimizin dost olduqlarını söyləyir. Zabit onu da bildirdi ki, vətənpərvər oğullarımızın yoldaşlığı xidmətə gəldikləri gündən başlayıb. Əsgərlərimizin bu cür mehribançılığı digər igidlərimiz üçün də əsl nümunədir. Belə səmimi, möhkəm dostluğun şahidi olmaq bizləri qürurlandırır.

Gəldiyimizi görən dostlar tez ayağa qalxırlar. Vətənpərvər oğullarımızın nizam-intizamı, səliqə-sahmanı diqqətimdən yayınmır. Onlarla tanış oluruq. Bərdə rayonundan hərbi xidmətə çağırılan əsgər Murad Məmmədzadə və Şabran rayonundan olan əsgər Yusif Hüseynovdur.

Onlarla söhbətimizdə əsgər M.Məmmədzadə dost qazanmağın çətin və zaman sınağından keçməli olduğunu bildirdi. "Mən hesab edirəm ki, dost bizim müəyyən qədər oxşarımızdı. Hər birimiz dostumuzda özümüzə xas olan xüsusiyyətlərdən hansınısa görürük. Boş yerə deməyiblər ki, dostunu göstər, sənin kim olduğunu deyim. Dostluq fədakarlıq deməkdir. Bəzən heç valideynlərimə belə deyə bilmədiyim sirrimi dostumla bölüşürəm. Ondan çətin anımda məsləhətlər alıram. Bütün əsgərlərimizə məsləhət görərdim ki, dostluqda möhkəm olsunlar. Düşmənlə üzbəüz dayandığımız anda hər kəs öz yoldaşına, dostuna güvənməlidir. Döyüş meydanında Hüseynovla çiyin-çiyinə dayanaraq, doğma torpaqlarımızı mənfur düşməndən qorumağımızla fəxr edirəm".

Əsgər M.Məmmədzadənin sözlərindən Yusifə güvəninin və inamının sonsuz olduğunu öyrənirəm.

"İlk günlərdən hərbi xidmətə uyğunlaşmaq mənim üçün çətin idi. Fikirləşirdim ki, hərbi qaydaqanunun bütün tələbləri ilə ayaqlaşa bilməyəcəm. Ancaq əsgər Məmmədzadə ilə tanış olandan sonra hər şey mənim üçün asanlaşdı. O, mənə bilmədiklərimi öyrədir, məşğələlərin mövzularını dərindən yiyələnməyimə köməklik göstərdi. Murad həmişə hər birimizin qardaş olduğumuzu deyir. Bunun, həqiqətən də, belə olduğunun gənc əsgər hazırlıq dövrü bitəndən sonra Vətənimizin müdafiəsində dayandığımız andan şahidi oldum. Muradla tez-tez işğal altında olan torpaqlarımızdan danışırıq. Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözləyirik. Xalqımızın yaddaşına Şuşaya döyüş bayrağını sancan iki dost kimi həkk olmaq istəyirik", - əsgər Y.Hüseynov belə deyir.

Yusif Hüseynov Murad Məmmədzadə ilə olan dostluğunun hərbi xidmətini başa vurduqdan sonra da davam edəcəyindən əmin olduğunu bildirdi.

Vətənimizin dar günündə, düşmənlə təmas xəttində Azərbaycan əsgərinin belə sədaqətli, möhkəm və səmimiyyətə söykənən münasibət qurduqlarını görəndə ürəyim daha da fərəhlənir. Qorxmaz dostlardan növbəti yazımı Şuşada, İsa bulağının ətrafında hazırlamaq azrusu ilə vidalaşıram.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

## "ATMOS-2000" özüyeriyən artilleriya qurğusu



İsrail istehsallı "ATMOS-2000" özüyeriyən artilleriya qurğusu TATRA T815 VVN 6X6 şassisinin bazası əsasında hazırlanıb. Bu qurğu özündə artilleriya batareyalarını, dzotları, canlı qüvvəni məhv etmək, həmçinin mina sahələrinin keçilməsini təmin etmək və səhra manеələrini dəf etmək üçün nəzərdə tutulmuş haubitsanı təsvir edir. İlk olaraq mövcud artilleriya sisteminin hazırlanması Soltan İsrail şirkəti tərəfindən, sonradan isə Elbit Systems şirkəti tərəfindən həyata keçirilib. Sınaqları başa çatdıqdan sonra bir çox ölkələrin silahlanmasına qəbul edilib. 155 mm kalibrli standart haubitsanın atəş tezliyi dəqiqədə doqquz atışdir. Eyni vaxtda 130 mm-lik top dəqiqədə 12 atəş də aça bilir. Onun mərmiləri zirehdeşən, qəlpə-fuqas ola bilər. 130 mm-lik topdan atəş sürəti saniyədə 930 metr, hədəfi maksimal məhvetmə uzaqlığı 27 kilometrdən çox təşkil edir. Bundan başqa "ATMOS-2000" istismar zamanı çox sadədir və ucuz başa gəlir. Onun təmiri "one-self-repair" prinsipi əsasında həyata keçirilir, bu da səhra şəraitində baş verən sınmaları aradan götürməyə imkan verir. Bu planda özüyeriyən artilleriya qurğusunun tırtılı hərəkət zamanı öz rəqiblərini üstünləyir. "ATMOS 2000"-nin əsas mobilliyi onun bir neçə dəqiqə ərzində mövqedə olmasıdır. Yaxşı döyüş hazırlığı keçmiş heyəti mövqeyə gəldiyi andan özüyeriyən artilleriya qurğusunu dəqiqə yarım ərzində döyüşə tam hazır vəziyyətinə gətirir. Onun kompüter bort sistemi müasir batareya atəşi idarə sisteminə tam inteqrasiyanı təmin edir. Koordinatlar bort kompüter sistemi ilə, necə ki, komanda qərargahından kəşfiyyatçı-korrektirdən daxil olan kimi qəbul edilə bilər. TATRA T815 VVN 6X6 kabinəsi zirehli vərəqdən hazırlanıb. Heyəti atıcı silahdan atılan atəşdən və artilleriya mərmisinin qəlpələrindən qoruyur. Mühərriki dizelli, 315 at gücündə, üç oxlu, altı təkərlidir. Özüyeriyən artilleriya qurğusu əlavə güc qurğusu ilə də təmin edilib. Topun manipulyasiyasını, onun təchizatını və mühərrikin sönməsi zamanı mərmilərin yenidən atılmasını da həyata keçirir.

Taktiki-texniki xüsusiyyətlərinə gəldikdə heyəti 4-6 nəfər, çəkisi 22.000 kiloqram, habarit ölçüləri uz. x eni x hünd. 9,8x2,65 x 3,24 m-dir. Maksimal hərəkət sürəti saatda 80 kilometr, ehtiyat hərəkəti 1000 kilometrə qədərdir. Müxtəlif dərinlikli və hündür maneələri keçməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**



## "Dəniz Kuboku-2018" müsabiqəsinin iştirakçıları paytaxtımızın görməli yerlərində olublar

"Dəniz Kuboku-2018" müsabiqəsində iştirak edən dövlətlərin nümayəndələri üçün mədəni proqram təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycana müxtəlif ölkələrdən gələn hərbi dənizçilər proqram çərçivəsində Bakı şəhərinin görməli yerlərində olub, tarixi abidələri ziyarət ediblər.

Paytaxtımızın gözəlliyi, müasir tikililər və aparılan quruculuq işləri qonaqlarda xoş təəssüratlar oyadıb.

## Bakıda "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqənin təntənəli açılış mərasimi keçirildi

İyulun 31-də "Beynəlxalq Ordu Oyunları-2018" çərçivəsində Bakıda təşkil edilən "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqənin təntənəli açılış mərasimi keçirildi.

Açılış mərasimində şəhər sakinləri, hərbçilər və xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri iştirak etdilər.

Qəzetimizin növbəti sayında bu barədə geniş məlumat veriləcək.

**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 470
Nüsxə 3525